MATRIX

Think Beyond Technology

JAVA PROQRAMLAŞDIRMA

Tədris Planı

Məzmun

2. Proqramlaşdırma karyerana başla
3. Kursun hədəfləri
4. Müəllimlərimiz
5. Tədris planı
7. Karyera dəstəyi
9. Matrix Cəmiyyəti
10. Bizimlə əlaqə

Proqramlaşdırma Karyerana Başla

Matrix Training Center sizə Java Proqramlaşdırma karyeranıza başlamaq üçün mükəmməl bir fürsət verir. Elə bu gün Java dili kursumuza qeydiyyatdan keçərək , gələcək karyeranıza doğru ilk addımı atın.
Kursda tələbələrin tam olaraq şirkətlərin tələblərinə uyğun Java proqramçı olaraq yetişmələri üçün lazım olan bütün biliklər onlara xüsusi metodiki və praktiki üsullarla öyrədiləcək.
Tələbələr praktikada istifadə edilmiş qəliblərə və qızıl qaydalar diqqət edilərək , Java dili təməllərindən öyrənəcəklər.
Texniki biliklərlə yanaşı müəllimlərimiz tələbələrə problemlərə necə müdaxilə etməli olduqlarını , hər hansı bir xəta zamanı nə etməli olduqlarını , Java dilinin xüsusi və az bilinən sirrlərini öyrədəcəklər.

"I think that great programming is not all that dissimilar to great art. Once you start thinking in concepts of programming it makes you a better person, as does learning a foreign language , as does learning math , as does learning how to read"

Jack Dorsey | Founder of Twitter
Founder & CEO of Square

Kursun Hədəfləri

- Sıfırdan alqoritmlər üzərində praktika
- Java dili üzərində proqramlaşdırmanın əsaslarının mənimsədilməsi
- Java SE - nin əsasları , Desktop layihələr üzərində iş
- MySQL - in tətbiqi ilə verilənlər bazası ilə əlaqəli işləyən proqramların yazılması, MySQL - in Javada istifadə yeri
- OOP yönümlü proqramlaşdırmanın əsasları
- Java dili ilə veb layihələrin qurulması, HTML5, CSS3, JS
- Spring Framework, tətbiqi ilə layihələrin qurulması üsulları
- JSP, Servlets və s. əsasları
- Webservices üzərində təcrübə imkanı
- Session, Cookie üzərində praktika
- MVC tətbiqi ilə layihələrin qurulması
- Deadline - la effektiv işləməni öyrənmək
- Necə öyrənməyi öyrənmək - Yaxşı proqramçı səhvlərin həllini necə tapmalı olduğunu yaxşı bilir, dokumentasiyaları oxumağı bacarır və s.

Təlimçi / Mentor

Ramil Məmmədov

Hal-hazırda Bank of Baku ASC - nin Proqramlaşdırma Departamentinin inkişaf şöbəsinin Aparıcı Ekspertidir.
Java istiqamətində professional təcrübəyə malikdir.
Linkedin hesabı : https://www.linkedin.com/in/ramilmammadov
İş yerləri : Bank of Baku, PashaBank , AccessBank, İvytech İnnovations, Cowsel



Karyerasını dəyişənlər

Hazırda çalışdığınız iş sizi xoşbəxt etmir? Texniki karyera arzulayırsınız?
Matrix Training Center - Java dili kursu məhz sizlər üçündür. Elə indi qoşulun və yeni bir karyeraya sahib olun.

Biliklərini artıranlar

Bu günə qədər öyrəndiyiniz biliklər artıq sizə bəs etməməyə başlayırsa, Matrixdə siz öz biliklərinizi müəllim və mentorlarımız vasitəsilə artıra bilərsiz. Öyrənmək üçün heç vaxt son nöqtə yoxdur. Hələ öyrənəcək çox şey var!

Startupçılar

Ağlında daimi yeni bir startup ideyası olub, bu ideyanı reallaşdırmaq üçün proqramçı tapa bilməyən startupçılar Matrix Training Centerin kurslarına müraciət edərək, bu problemlərini özləri həll etməyi öyrənə bilərlər.

Tələbələr

Universiteti yeni bitirmisiniz və öz karyeranızı qurmağa başlamaq istəyirsiniz? Bir çox şirkət təcrübə və portfolio tələb edir və universitet vaxtı bunları əldə edə bilməmisiniz?
Matrix Training Center kursa qoşulan tələbələrinə həm praktiki layihələr üzrə təcrübə , həm də portfolio imkanı yaradır.

Tədris Planı

BAŞLANĞIC
Məlumat mübadiləsi

MODUL 1 | 1-ci ay
Təməl səviyyə | Java SE

İlk modulda sıfırdan Java dilində alqoritmik məsələlər həll etmək və Java dilinin sintaksis strukturu həmçinin proqramlaşdırmanın əsaslarını öyrənəcəksiniz. Sadə kod blokları yazaraq proqramlaşdırmanın fundamental əsaslarını öyrənəcəksiniz.

MODUL 2 |2-ci ay
Fundamental səviyyə | Java SE

İkinci modulda OOP - un əsaslarını öyrənəcək və Java dilində Desktop layihələrin qurulması üsulları ilə tanış olacaqsınız. Sıfırdan funksiya və prosedurlar quracaq və onların real layihələrdə tətbiq üsulları ilə yaxından tanış olacaqsınız.

MODUL 3 | 3-cü ay
Professional səviyyə | Java SE

Üçüncü modulda MySQL- də yazacağınız sorğuların Java dilində layihələr qurulan zaman inteqrasiya üsulları ilə tanış olacaq və sadədən mürəkkəbə doğru sorğular yazmağa başlayacaqsınız. Bu modulun sonunda Interface , Exception , Fayllar üzərində iş kimi maraqlı mövzular üzərində praktika imkanı əldə edəcəksiniz.

Tədris Planı

MODUL 4 | 4-cü ay
Professional səviyyə | Java EE

Bu modulda Veb proqramlaşdırmaya keçid edəcək və sıfırdan veb layihələrin qurulması qaydalarını öyrənəcəksiniz. JSP, Servlets kimi mövzuları öyrənməklə HTML, CSS - in əsaslarını mənimsəyəcək və sıfırdan veb səhifələr yığmaq üzərində praktika əldə edəcəksiniz.

MODUL 5 | 5-ci ay
Professional səviyyə | Java EE

Bu modulda Javascript - ə keçid edəcək və interaktiv veb səhifələr yığmağa başlayacaqsınız. Session, Cookie kimi lazımlı bölmələrə toxunaraq, veb layihələrinizi təkmilləşdirəcək və portfolionuzu yığacaqsınız.

MODUL 6 | 6-cı ay
Professional səviyyə | Java EE

Altıncı modulda Cookies, Maven kimi texnologiyalar öyrənəcəksiniz . Spring – mövzusuna keçid edəcək və prinsiplərinə bələd olacaqsınız.

MODUL 7 | 7-ci ay
Professional səviyyə | Java EE

Sonuncu modulda Spring üzrə biliklərinizi təkmilləşdirəcək ,Webservices - lərin əsaslarını öyrənməklə,veb layihələrin professional şəkildə qurulma üsulları üzərində praktika edəcəksiniz. Bu modulda portfolionuzu daha da təkmilləşdirəcəksiniz.Spring Security ,Spring MVC kimi mövzulara keçid edəcək və MicroService arxitekturası ilə tanış olacaqsınız.





Karyera Dəstəyi

Hilal Həsənli

Pasha Insurance | Senior Developer

« Matrix Training Center üçün əsas olan bazarın tələblərinə uyğun olan , peşəkar mütəxəssislər yetişdirməkdir. Buna görə də kurslarımızdan uğurla məzun bütün tələbələrimizə karyera istiqamətində daimi dəstək vermək bizim üçün əsas prioritetlərdəndir. Biz mütəmadi olaraq karyera günləri keçirir, iri və orta şirkətlərin təcrübə və iş elanlarını tələbələrimizlə bölüşür , onları bu vakansiyalar üçün hazırlamağa çalışırıq. Böyük şirkətlərdə keçirilən imtahanlara hazırlıq da tələbələrimizə göstərdiyimiz əlavə xidmətlərdən biridir. »

Karyera hazırlığı və Referanslar

Bizim möhtəşəm komandamız sizə karyera yolunda dəstək olmağa hazırdır.

Biz öz partnyorlarımızla mütəmadi olaraq təcrübə proqramları elan edir, öz tələbə və məzunlarımızın bu təcrübə proqramlarında iştirakına şərait yaradır və onları gələcək karyeralarına hazırlayırıq.

Karyera Görüşləri

Tələbələrimiz mütamadi olaraq keçirdiyimiz karyera görülərinə qoşularaq həm şəbəkələşmənin dadını hiss edəcək, həm də öz gələcək karyeraları üçün lazımi məsləhətlər əldə edəcəklər.

CV / Resume xidməti

Bizim peşəkar komandamız öz təcrübələrindən də istifadə edərək tələbələrimiz və məzunlarımız üçün professional CV / Resume / Portfolio hazırlamaqda onlara köməklik göstərəcək.

Təcrübə Proqramları

Matrix Training Center partnyorları ilə birgə , mütəmadi olaraq təcrübə proqramları elan edir. Bu proqramlara qoşularaq siz peşəkar iş mühitinə, peşəkar komandalara daxil olaraq, biliklərinizi təkmilləşdirə bilərsiniz.

Karyera Dəstəyi

Biz məzun və tələbələrimizin karyera imkanları üçün aşağıdakı şirkətlərlə də əməkdaşlıq edirik.

Camal Ağayev

Qurucu Ortaq, Rəhbər | Teching

Matrix ilə bizim əməkdaşlığımız proqramlaşdırma sahəsində praktiki biliklərin tətbiqinə əsaslanmışdır. Şirkətimizdə təşkil etdiyimiz təcrübə proqramlarında ən aktiv iştirakçıların Matrix tələbələri olduğunu məmnunluq hissi ilə deyə bilərəm. Ümidvaram ki, əməkdaşlığımız hər zaman eyni müstəvidə davam edəcəkdir.

Cavid Məmmədov

Qurucu, Rəhbər | Sumaks Technologies MMC

Matrix ilə artıq uzun müddətdir ki, uğurlu əməkdaşlıq çərçivəsində işləyirik. Bu təhsil müəssisəsinin tələbələri üçün elan etdiyimiz təcrübə proqramlarından kifayət qədər uğurlu proqramçılar və komanda yoldaşları əldə etmişik. Bundan sonra da bu əməkdaşlığa davam edəcəyik.

Matrix Cəmiyyəti

Matrix Training Center-dən məzun olduqdan sonra siz Matrix cəmiyyətinə üzv olursunuz.

Bu cəmiyyəti formalaşdırmaqda əsas məqsədimiz məzunlarımızla daimi əlaqədə olmaq , onlar üçün ən yaxşı imkanları bir araya toplamaqdır.

Daimi Tədris

Kurslarımızdan məzun olsanız da bizim öyrətmək prosesimiz bitmir. Matrix cəmiyyətində siz daimi olaraq yeni məlumatlar öyrənəcək və öyrəndiklərinizi cəmiyyətimizin üzvləri ilə bölüşəcəksiniz. Beləcə biz birlikdə böyüyəcək və təhsildən sonra da təhsilə davam edəcəyik. Öyrənmək üçün son bir tarix yoxdur!

Şəbəkələşmə

Bütün məzunlarımızı əhatə edən bu cəmiyyət gələcəyin çox güclü biznesmen , proqramçı, mühəndislərini bir araya toplayacaq. Bu isə sizin üçün əvəzedilməz bir şəbəkələşmə imkanı deməkdir. Məzunlarımızın bir-biriləri ilə daimi olaraq münasibətdə olması onların inkişafı üçün böyük bir üstünlükdür. Bəlkə də xəyalınızdakı iş sizə elə bu cəmiyyətin üzvlərindən biri tərəfindən təklif ediləcək.

Tədbirlər

Matrix Training Center və partnyorlarının mütəmadi olaraq təklif etdikləri tədbirlərdə ödənişsiz , xüsusi qonaq olaraq iştirak etmək imkanı da sadəcə Matrix cəmiyyətinin üzvləri üçün mümkün olacaq. Müxtəlif hackathonlar , proqramlaşdırma müsabiqələri , görüşlər də ilk olaraq məhz bu cəmiyyətin üzvləri üçün əlçatan olacaq.

Başqa Üstünlüklər

- **Öz layihələrinizə ortaq , proqramçı , komanda yoldaşı, dizayner və s. tapmaq imkanı**
- **Böyük şirkətlərin proqramlarında iştirak etmək haqqı, ödənişli təcrübə və mübadilə proqramları**
- **Matrix Training Center və partnyorlarından möhtəşəm endirimlər**

MATRIX

Think Beyond Technology

www.matrix.co.az hello@matrix.co.az 050 725 20 26